# Sevda İbrahimovanın yaradıcılığında faciəvi obrazların təcəssümü

*Azərbaycan musiqisində faciə mövzusu instrumental və vokal-instrumental musiqi janrlarında yazılmış müxtəlif əsərlərdə öz əksini tapmışdır. Bəstəkar Sevda İbrahimovanın yaradıcılığında da Azərbaycan tarixinin faciə ilə dolu səhifələrinə həsr olunmuş əsərlər diqqəti cəlb edir. Bu baxımdan S.İbrahimovanın xalqımızın ən ağrılı yaşantıları - 20 Yanvar, Qarabağ faciəsi ilə bağlı əsərlərini qeyd etmək istərdik. Bəstəkarın "Vətən şəhidlərinə", "Sənin üçün darıxıram, Şuşam", "Vətən düşüncələri" əsərləri Azərbaycan musiqisində bu mövzuda yazılan ən maraqlı əsərlərdəndir. Adı çəkilən bu əsərlərdə faciəvi obrazlar öz dərin təcəssümünü tapmış və bəstəkar tərəfindən böyük bədii qüvvə ilə şərh olunmuşdur.*

*S.İbrahimovanın "Vətən şəhidlərinə" kantatası 1990-cı ildə bəstələnmişdir. Şair M.Dilbazi və M.İbrahimovun sözlərinə yazılmış bu kantata solo soprano, bariton və orkestr üçün nəzərdə tutulmuşdur. Orkestrin tərkibi bir qədər qeyri-adidir. Belə ki, buraya simli kvintet, qaboy, saz və fortepiano daxildir.*

Kantatanın kompozisiyası sərbəst quruluşludur. Solistlərin partiyasından asılı olaraq, bir neçə müstəqil bölümdən ibarətdir. Bununla yanaşı, kompozisiyanın yekun mərhələsində birinci bölməyə qayıdış burada repriza əlamətlərinin mövcudluğunu aydın nümayiş etdirir. Bunun da nəticəsində kantatanın forması bütövlükdə vahid, məqsədyönlü xarakter alır və eyni zamanda, sərbəst surətdə şərh olunmuş üçhissəli forma cizgiləri kəsb edir.

Kantatanın musiqisi dərin kədər və hüznlə aşılanmışdır. Belə ki, xalqımızın tarixinə yazılmış faciələr, 1990-cı il yanvarın 20-də günahsız insanların faciəli ölümü Azərbaycan xalqının qəlbində ağrıya və iztiraba çevrilərək, sənətkar yaradıcılığında əks-sədasını tapmışdır.

"Vətən şəhidlərinə" kantatasında musiqinin ümumi inkişafı xalqın, insanlığın qəddarlıq və zülmkarlıq üzərində qələbəsini əks etdirir. Kantatada iki əsas obraz özünü qabarıq büruzə verir: solo bariton və soprano partiyalarında. Bariton qiraətçi rolunda da çıxış edərək, sanki müəllifin özünün sözlərini, fikirlərini ifadə edir. Baritonun partiyası reçitativ-deklamasiya intonasiyaları ilə zəngindir və sərbəst qurulmuşdur. Bəzən musiqinin harmonik və ritmik tərəfləri melodik başlanğıca nisbətən üstünlük təşkil edir.

Baritondan fərqli olaraq, yüksək səsin - sopranonun partiyası xalq mahnısı tərzindədir. Bu da həm intonasiya quruluşu prinsiplərində, həm də musiqi mətninin strukturunda öz təsirini göstərir.

Soprano sanki xalqın səsidir; o, xalqın baş verən faciələrinə münasibətini əks etdirir.

S.İbrahimova "Vətən şəhidlərinə" kantatasında milli musiqiyə əsaslanaraq, üzvi surətdə müasir musiqi üslublu əsər yarada bilmişdir.

Maraqlı cəhət budur ki, kantatada yalnız bir mövzu özünü qabarıq göstərir və bu da inkişaf prosesində dəfələrlə təkrarlanaraq əsəri çərçivəyə alır. Ümumiyyətlə, kantata çoxmövzuludur və inkişaf prosesində periodik olaraq, yeni intonasiya modelləri yaranır.

Bununla yanaşı, kompozisiyanın tamlığı və mütənasibliyi bölmələr arasındakı sıx intonasiya əlaqələri ilə şərtlənmişdir. Bu baxımdan, əsərin müxtəlif fraqmentlərini təbii surətdə birləşdirən pillələr ətrafında gəzişmə-oxuma intonasiyalarını göstərmək kifayətdir. Təbii ki, burada söhbət mətnin ən kiçik struktur vahidindən deyil, obrazın gərgin emosional inkişafında mühüm rol oynayan ifadəli funksiyadan gedir.

Əlamətdardır ki, simli alətlərin "mülayim", "danışıq" tembrindən istifadə etməklə, bəstəkar xüsusi emosional ifadəliliyə nail olmuşdur.

Əsərin musiqisində müxtəlif səslərdə, müxtəlif instrumental uzlaşmalarda kiçik intonasiya ibarələri kristallaşır. "Oxuyan" musiqi fakturası kompleks səslənmədə parlaq intonasiya modellərini qovuşdurur. Bu intonasiyalar şur lad sferası ilə bağlıdır və ladın tonikua dayaq nöqtəsi olan "si" səsinin saxlanılması fakturada ostinat təbəqə əmələ gətirir.

Maraqlıdır ki, verilmiş intonasiya modellərinin əsas qurucu özəyi lad - istinad pilləsi ətrafında gəzişmə oxunma prosesindən yaranır. Onu da deyək ki, burada söhbət yalnız yüksəkliyinə görə ona yaxın olan tonlarla əhatə olunmasından getmir, daha geniş mənada götürdükdə, mərkəzi səsin ona tabe olan səslərlə ifadəli şəkildə dövrəyə alınmasından yaranan bütün intonasiyalar nəzərdə tutulur. Mərkəzi, oxunan səsin onu əhatə edən tonlarla qarşılığı lad - intonasiya əlaqəsi nəticəsində isə o, daha məzmunlu, emosional baxımdan zəngin və dolğun olur.

Nəzərdən keçirdiyimiz kantatada tonika mərkəzinin oxunması bir neçə yolla həyata keçirilir: yüksələn xətli və kadensiyalarda gecikdirmələrlə; eyniistiqamətli yüksələn sekundalarla oxuma, qapalı məkanda assimetrik oxuma.

Düzxətli yüksələn hərəkətdə müqavimətin olmaması tonika mərkəzinin xanənin zəif hissəsinə keçirilməsi ilə tənzimlənir. Qapalı məkan daxilində oxuma isə müxtəlif həcmli yüksələn və enən gedişlərdən ibarətdir ki, bu da kənar səslərlə çərçivəyə alınmış boş bir sahə əmələ gətirir. Bu halda həmin sahənin mərkəzində

bünövrə yaradan ton yerləşir və nəticədə bütün intonasiya şaxələnməsi ona doğru cəzb olunur.

Bəzən qapalı məkan daxilində əsas intonasiyadan uzaqlaşma özünü göstərir ki, bu da xətti inkişaf prosesinə gərginlik elementi aşılayır və melodik müqavimət yaranır.

Kantatada melodik inkişafın diqqətəlayiq cəhəti kimi enən sekvensiya dalğaları da qeyd olunmalıdır. Məlum olduğu kimi, bir çox nəzəriyyəçi alimlər, haqlı olaraq, emosiyaların inkişafını təcəssüm etdirən ifadə vasitələri sırasında sekvensiyanı birinci yerdə görürlər. S.İbrahimovanın "Vətən şəhidlərinə" kantatasının təhlilindən belə nəticəyə gəlirik ki, burada sekvensiyadan yalnız dinamik emosional mənada deyil, həm də spesifik qurucu element kimi istifadə olunmuşdur ki, bu da milli üslub üçün çox xarakterikdir. Sekvensiyaların əsas xüsusiyyətləri - onların enən hərəkətli olması, motivlərin xüsusi miniatür cizgiləri, halqaların minimal sezuralarda çox axıcı, plastik hərəkət xəttindən ibarətdir. Bundan əlavə, çox zaman sekvensiyalı melodiyanın inkişafı pillələrin oxunması ilə bağlı olur. Bunun da məğzi ondan ibarətdir ki, enən sekvensiyalı hərəkət xətti hər bir dayaq pilləsinin oxunması formuluna əsaslanan bir sıra avazlara bölünür.

Göründüyü kimi, bəstəkar faciəvi obrazların təcəssümündə bədii ifadə vasitələrini elə seçir ki, onlar bu obrazların məğzini və mahiyyətini dərinliyinə kimi açıqlaya bilir. Musiqinin bütün parametrləri - kompozisiya quruluşu, melodika, metro-ritm, lad-intonasiya strukturu, inkişaf prinsipləri və s. faciəvi obrazların şərhinə, əsərin konsepsiyasının üzə çıxarılmasına yönəldilmişdir.

S.İbrahimovanın "Sənin üçün darıxıram, Şuşam!" konsert kompozisiyası 1999-cu ildə bəstələnmişdir. Əsər simli orkestrin və fortepianonun müşayiəti ilə solo tar üçün yazılmışdır. Bu əsər indi düşmən tapdağı altında olan gözəl Şuşa şəhəri, Vətənin və xalqın iztirabları haqqında bəstəkarın həyəcanlı düşüncələrini əks etdirir.

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şuşa öz musiqi sənəti ilə böyük şöhrət qazanmışdı. Şuşanın zəngin təbiəti, özünəməxsus məişəti və incəsənəti, qəhrəmani keçmişi daim Azərbaycanın mədəniyyət xadimlərini yeni əsərlər yaratmağa, onu vəsf etməyə ruhlandırmışdır. Şuşaya həsr olunmuş əsərlər sırasında isə S.İbrahimovanın "Sənin üçün darıxıram, Şuşam!" öz bədii təsir gücünə və faciənin böyüklüyündən doğan həyəcanlı emosionallığına görə xüsusi yer tutur. Belə ki, bəstəkarın özünəməxsus lirik ruhlu gündəliyi, xatirat dəftəridir. Burada müəllifin təəssüratları ilə hissləri musiqi obrazlarının qarşılaşdırılması vasitəsilə ifadə olunmuşdur.

Bununla yanaşı, bu kompozisiya vahid bədii məzmuna malik əsərdir ki, bu da musiqi obrazlarının birbaşa ardıcıl inkişafı ilə əvvəldən axıra kimi musiqi obrazının, emosiyaların açıqlanması ilə şərtlənmişdir. Eyni zamanda, burada lirik-dramatik başlanğıc xalq janr xüsusiyyətləri ilə qovuşaraq, bir-birinə qarşılıqlı təsir göstərir.

Əsərin quruluşunda bəstəkarın forma yaratmaq sahəsindəki böyük ustalığı özünü büruzə verir. İlk baxışdan, bizim qarşımızda mürəkkəb üçhissəli forma nümunəsi durur ki, onun kənar bölmələri ikihissəli, orta bölməsi isə üçhissəli quruluşludur.

Lakin kompozisiyanın daha ətraflı təhlilindn aydın olur ki, bəstəkar burada orijinal sonata strukturu yaradaraq, işlənmə bölməsi əvəzinə epizoddan istifadə etmişdir. Bunun sübutu olaraq belə bir faktı qeyd edə bilərik ki, birinci hissənin ikinci mövzusu sonata formasının köməkçi mövzusu kimi, reprizada başqa səviyyəyə keçir, yəni əsas tonallıqda səslənir.

Bəstəkar bütün əsər boyu solo tar partiyasında muğam improvizasiya üslubunu çox orijinal tərzdə təcəssüm etdirmişdir. Bu mənada reprizada əsas və köməkçi partiyalar arasında tarın müşayiətsiz improvizasiyasının daxil olunması kulminasiya mərhələsi kimi özünü göstərir. Bununla yanaşı, bu fraqment instrumental konsertin birinci hissəsinə də uyğundur. Belə ki, sonata formasında yazılan bu hissənin əsas xüsusiyyəti virtuoz solo kadensiya hesab olunur. Simli orkestrin və fortepianonun funksional əhəmiyyəti isə müşayiətedici fon çərçivəsindən kənara çıxmır.

Əsərin əsas lad-tonallığı mi tonikalı şüştərdir. Ü.Hacıbəyova görə,dərin kədər hissləri aşılayan bu lad əsərin faciəvi obrazlar sistemində mühüm semantik əhəmiyyətə malikdir.

Əsərin əsas mövzusu da daxilən çox gərgindir və insan mənəviyyatını müxtəlif çalarlarla əks etdirərək, onun baş verən faciəli hadisələrə münasibətini açıqlayır. Bu mövzuda ekspressiv emosiyalar həyəcanlı yalvarış, iztirabların çəngindən qurtulmaq istəyi təcəssüm olunmuşdur.

Mövzu dinamik xarakterlidir. Əsər boyu həm intonasiya, həm metroritm, həm də səs yüksəkliyi münasibətləri baxımından transformasiyaya məruz qalır: bəzi hallarda mövzunun rüşeymindən yaranan motiv inkişafı gur axınla inkişaf etdirilir, bəzən isə intonasiya inkişafı sərbəst hərəkətli improvizasiya xarakteri kəsb edir.

Əsərin sonunda faciəvi obrazın dinamik yüksəlişi hisslərin ehtirasla, çılğınlıqla səslənməsində təzahür edir. Belə iradəli və fəal hərəkətli sonluğu bəstəkarın nikbin baxışlarının təcəssümüdür.

Əsərin mövzularında ekspressiv emosiyalarla həyəcanlı yalvarışlarla yanaşı, iztirabların çəngindən qurtulmaq istəyi də təcəssüm olunmuşdur.

Mövzuların lad - intonasiya məzmununa gəlincə, qeyd etməliyik ki, bəstəkar şüştər və segah ladlarına əsaslanan intonasiya özəyinin mürəkkəbləşdirilmiş variantlarından istifadə edərək məqsədyönlü inkişafa nail olur. İntonasiya özəyində və onun metroritmik variantlarında üç cəhət: yüksəliş, gərginlik mərkəzi və onun sakitləşməsi özünü qabarıq göstərir. Belə bir xüsusiyyəti də qeyd etməliyik ki, zirvə tonuna doğru pillə-



vari yüksəliş zamanı melodik mərkəz xanənin zəif hissəsinə təsadüf edir ki, bu da mövzuda daxili ziddiyyətləri qüvvətləndirir. Gərginliyin azalması isə isə enən sekvensiyalı hərəkətlə təmsil olunur. V. Tsukkermanın yazdığı kimi, məqsədə çatmaq üçün müəyyən manevrlərdən keçmək lazımdır ki, bu da melodik xəttin mürəkkəbləşdirilməsində, sxemdən kənara çıxmalarda, canlı melodik impulsların yaradılmasında ifadə olunur və melodiyanın fəallığı və inkişafı bütün bunlarla sıx bağlıdır.

Beləliklə, nəzərdən keçirdiyimiz əsərin mövzularının intonasiya rakursunda hərtərəfli,əhatəli təhlilindən belə bir metrik dalğaya malikdir və onun hər bir qurumunda yüksəliş-genişlənmə, mərkəz - gərginlik, eniş-sakitləşmə kimi inkişaf mərhələləri özünü göstərir. Melotonikanın alt və üst səslərlə oxunması, xanənin güclü hissəsindən zəif hissəsinə və əksinə yerdəyişməsi kimi üsullardan istifadə sayəsində xüsusi tutumlu, dolğun emosional səslənməyə malik motivlər meydana gəlir. Metroritmik inkişaf da aramsız olaraq öz hərəkətini davam etdirərək, melodiyada ekspressiyanın, dinamik elementlərin meydana gəlməsinə şərait yaradır.

Obrazın dinamik yüksəlişi hissləri ən ehtiraslı həddə çatdırır. Əsərin fəal, iradəli notlarla tamamlanması isə S.İbrahimovanın kompozisiyasının nikbin konsepsiyasını təsdiq edir.

S. İbrahimovanın "Vətən düşüncələri" əsəri 2000-ci ildə simli orkestr üçün yazılmışdır. Onun məzmunu və xarakterini qısaca belə ifadə etmək olardı ki, bu, bəstəkarın Vətən haqqında düşüncələrinin emosional baxımdan zəngin və konkret ifadəli - kədərli və lirik, iradəli və güclü obrazlar vasitəsilə təcəssümüdür. Bu düşüncələrdə işıqlı idealın təntənəsinə can atan həyat poeziyasının daxilən gərgin inkişafı özünü büruzə verir. İnsan intellektinin gücü, onun hissiyatının dərinliyi, onu əhatə edən həyatın parlaq görüntüləri əsərin obrazlı-emosional məzmununun təzahürüdür. İfadə olunan hisslərin səmimiliyi, bədii idealın dərinliyi, kompozisiyanın aydınlığı, incə artistizm - bütün bunlar əsərin estetik gözəlliyini qabarıq üzə çıxaran amillərdir. Əsas fikir və obrazların daxili əlaqəsi, tamlığı birbaşa ardıcıl inkişaflı musiqi təbəqələri yaradan zərif intonasiya tağları əsərin kompozisiyasını sonata-simfonik silsiləyə yaxınlaşdırır. Lakin burada inkişaf dinamikası, hadisələrin təzadlıq prinsipi deyil, lirik-dramatik obrazlarının subyektiv səslənməsi ilə obyektiv həyat lövhələrinin qarşı-qarşıya qoyulması prinsipi hökmran mövqe tutur. Bununla da süita tipli inkişaf prinsipi özünü göstərir.

"Vətən düşüncələri" bir-birinə kontrast beş hissədən ibarət olsa da əsər tamamlanmış mütənasib quruluşlu hekayət təsiri bağışlayır. Kontrastlıq prinsipi hissələr arasındakı temp dəyişikliyində də özünü göstərir.

Əsərin üslüb və janr xüsusiyyətləri, intonasiya məzmunu kifayət qədər çoxcəhətlidir. Bəstəkar burada linear inkişaflı polifonik musiqi quruluşundan və homofon-harmonik ifadə tərzindən, səslərin ostinat təbəqələşməsindən istifadə edir, muğam intonasiyalarını, rəngarəng aşıq səslənmələrini önə çəkir, melodik axıcılığı və gözəçarpan effektli müasir harmonik vasitələri qovuşduraraq, onları milli lad çalarları ilə zənginləşdirir.

Əsərin səslənməsi çox rəngarəngdir, belə ki, bəzən o, orkestr səslənməsinə,bəzən də əksinə,zərif kamera üslubuna yaxınlaşır. Musiqi obrazından asılı olaraq, bəstəkar bütün simli alətlərin gərgin səslənməsini vahid monolit tərzdə qovuşdurur. Bəzən isə musiqi materialındakı gərginlik azaldılaraq, hər bir səsə müəyyən bir funksiya həvalə olunur ki, bu da əsərin səslənməsinə relyefli cizgilər aşılayır.

Əsərin təhlilindən görünür ki, burada ciddi məntiqi struktur müəyyən emosional inkişafının hər bir mərhələsi konkret ifadəli mənaya malikdir. İnsanın qəlb çırpıntılarını, daxili hissiyyatını əks etdirən intonasiya əlaqələrinin hüdudları çox genişdir. Məsələn, təmkinli hisslər bir əsas səsin ətrafında inadla dolanan və onu dolğunlaşdıran melodiyada ifadə olunmuşdur. Emosiyaların coşması, hissiyatın fəallaşması və sərbəstləşməsi ilə intonasiya relyefi sekvensivari forma kəsb edərək, yumşaq şəkildə başlanğıc kadensiyaya qayıdılır. Nəhayət,yekun hissə - möhtəşəm, məqsədyönlü yüksəliş, işığı, sevinci mədh edən təntənəli himn xarakteri kəsb edir.

Sonda ritmik faktorun birləşdirici rolu xüsusi qüvvətlə üzə çıxır ki, bu da bütün səsləri kulminasiyaya doğru yönəldir. Gərginliyə görə bu, yüksək zirvədir, mənasına görə isə bütün inkişaf prosesinin yönəldiyi işıqlı məqsəddir. Beləliklə, "Vətən düşüncələri" silsiləsinin məntiqi yekunlaşmasına final hissədəki emosional-dinamik yüksəliş ideal surətdə cavab verir.

Göründüyü kimi, S.İbrahimovanın musiqisində faciəvi obrazların təcəssümü Azərbaycan tarixinin ən çətin anlarına həsr olunmuş əsərlərdə öz əksini tapır. Nəzərdən keçirdiyimiz əsərlər müxtəlif illərdə yazıldığına görə, burada gerçəklik təcəssümü və ona münasibət bir qədər fərqli görünür. Çünki birinci əsər bilavasitə 1990-cı il hadisələrindən sonra bəstəkarın dərhal reaksiyası ilə bağlı olub, onun ürəyindəki kədəri, etirazı qızğınlıqla əks etdirirsə, bundan 9-10 il sonra yazılmış əsərlərdə bu hisslərin daha yüksək duyğularla əvəz olunduğunu, xalqın haqq işinin ölməzliyini, əbədiliyini tərənnüm etdiyini görürük. Bununla da faciəvilik kateqoriyasının fəlsəfi yozumu ilə rastlaşırıq.

Faciəvi obrazların təcəssümü bədbinlikdən nikbinliyə, qaranlıqdan işığa doğru dəyişir.

Təbiidir ki, bütün bu hisslərin belə geniş spektrini açmaq üçün bəstəkar musiqinin bədii ifadə vasitələrindən istifadə edərək, lazımi formanı, musiqi dilinin xüsusiyyətlərini tapa bilmişdir.

*Xatirə ƏHMƏDLİ*